## Şəhidlər ölməz, vətən bölünməz

*Milli qəhrəmanımız Albert Aqarunovun əziz xatirəsinə*

# ƏBƏDİYYƏT NƏĞMƏSİ

*"Mən bu torpaqda doğulmuşam, bu torpaqda yaşayıram, vətənimi qoruyuram. Müharibənin sonunadək vuruşacağam".*

***23 yaşlı Albert Aqarunovun səngərdə, 1992-ci ildə müxbirə verdiyi müsahibəsindən.***



## AQARUNOV ALBERT AQARUNOVİÇ

25 aprel 1969-cu ildə Bakı şəhərində anadan olmuşdur. Suraxanı rayonundakı 154 saylı orta məktəbin səkkizinci sinfini bitirib, 101 saylı texniki-peşə məktəbində sürücü- mexanik peşəsinə yiyələnmişdir.

Mən indi bildim ki, bir hünər ölmür,
o şahlıq quşunu mən alqışladım.
Hünəri göstərən o əsgər ölmür,
sənin yaşıdındı,
mənim yaşıdım.

O sürdü tankını Cıdır düzünə,
Qarabağ düzünün tən ortasıydı.
Qartal şığıyırdı şikar üstünə,
bu uçuş -
sonuncu bir qıyyasıydı!

Zirvədən-zirvəyə o bir can atdı,
duyduqca düşmənin min hiyləsini.
Tolerant ölkənin adından atdı,
işğalçı ölkəyə -
son gülləsini.

Vətəndə - vətənsiz Şuşa qalası!
O, gözü yoldaydı,
Bu, özü yolda.
Deyin, qara geysin düşmən anası,
ya meyiti qalıb, ya izi yolda.
Sənə, Azərbaycan, o ana dedi,
səngərdə yazıldı varaq sinəsi.
Tufandan çıxanda, tufana getdi.
özü - şəhid oldu,
vətən - töhfəsi!

Gedib Xiyabanda gül-çiçək əkdik,
gözü aydın olsun doğan ananın.
Adını fərəhlə, qürurla çəkdik,
bizim adımıza
şöhrət olanın.

Qalxın, şəhidlərin xatirəsinə,
gəlsin səcdəsinə dumanlı dağlar.
Baxın - Azərbaycan xəritəsinə,-
Vətən yadigardı,
millət yadigar.

***Nəriman HƏSƏNZADƏ***

*9 aprel 2018-ci il*

O, 1987-ci ildə hərbi xidmətə çağırılmışdır. Gürcüstanın Axalkalaki rayonunda xidmətə başlayan Albert starşina rütbəsi alaraq tank komandiri olmuşdur. 1989-cu ildə ordudan tərxis olunub, bir müddət Suraxanı Maşınqayırma Zavodunda işləmişdir. Müharibənin qızğın vaxtında Albert könüllü olaraq cəbhəyə yollanır. O zaman yenicə yaranmaqda olan Millli Ordumuzun yüksək ixtisaslı tankçılara böyük ehtiyacı vardı. Albert tank komandiri təyin edilir və Şuşa cəbhəsinə göndərilir. Onun cəsur tank ekipajı tezliklə bütün cəbhə xəttində şöhrət qazanır. Cəsur tankçı Xankəndi, Daşaltı, Cəmilli istiqamətlərində düşməni dəfələrlə pərən-pərən salır,onlarla yaraqlını və xeyli hərbi texnikanı məhv edir.

Şuşa-Laçın yolu... 1992-ci il... Mayın 8-i... Səhər tezdən düşmən tankları görünür. Ermənilər Laçına gedən yolu kəsməklə Şuşanı tam mühasirəyə almışdı. Albert döyüş əmri alır və dərhal tankını həmin səmtə yönəldir. Düşmən tankları ilə aradakı məsafə getdikcə daralırdı. Fürsəti əldən verməmək üçün o, tankın sürətini daha da artırır və sərrast atəşlə düşmənin öndə gələn tankını məhv edir. Bu uğurundan ruhlanan Albert daha bir tankı alova qərq edir. Döyüşdə neçə-neçə düşmən texnikası sıradan çıxarılır. Lakin texnika və canlı qüvvənin ardı-arası kəsilmək bilmirdi. Albert yenidən həmləyə can atırdı. Ancaq buna macal tapmadı. Atılan mərmilərdən biri igid tankçını haqladı. Albert döyüş meydanında mərdliklə həlak oldu.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Aqarunov Albert Aqarunoviç ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilmişdir. Vaxtilə təhsil aldığı 154 saylı məktəb onun adını daşıyır. Məktəbin önündə büstü qoyulmuşdur.